Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 16 (1656) 30 sentyabr 2017 - ci il Qiymətı 50 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

**Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yaranmasının 25 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Yubiley mərasiminin iştirakçıları Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

***

Daha sonra Avropa Olimpiya Komitələrinin icraçı prezidenti Janez Koçijançiç çıxış etdi.

Janez Koçijançiç Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə MOK-un yaranmasının 25 illik yubileyi münasibətilə Avropa Olimpiya Komitələrinin xüsusi mükafatlarını təqdim etdi.

Sonra Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer çıxış etdi.

Marius Vizer Beynəlxalq Cüdo Federasiyasının ən yüksək mükafatını – qızıl medalını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı yüksək mükafatlara görə Janez Koçijançiçə və Marius Vizerə təşəkkürünü bildirdi.

Mərasim konsert proqramı ilə davam etdi.



## BU SAYIMIZDA


BÖYÜK ELMİ ŞURADA 2



Belarusun səhiyyə naziri ATU-nun qonağı olub 3



Azərbaycanlı cərrah "İFSO-2017" Beynəlxalq Konqresdə iştirak edib 3

Üçaylıq uşaq üzərində əməliyyat aparıldı 4



Kəskin obstruktiv bronxit zamanı uşaqlarınızı qripdən qoruyun! 4




Əməkdaşlarımız Avropa Klinik Mikrobioloqlar və İnfeksion Xəstəliklər Cəmiyyətinin konqresində 5

ATU-nun tələbələri yataqxana ilə təmin edilib 7

Azərbaycanda İcbari Tibbi Sığorta və KAHEKON-2017 *(Beynəlxalq Qaradəniz Ailə Həkimləri Konqresi)* 5



"Tibbi etika və həkimlərin hüquqları" mövzusunda seminar keçirilib 4

Professor Vaqif Şadlinskidən tələbələrə TÖVSİYƏ 4

**Sentyabrın 26-da Böyük Elmi Şuranın 2017-2018-ci tədris ilində ilk yığıncağını açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli əvvəlcə yeni tədris ilinin başlanması münasibətilə şura üzvlərini təbrik etdi. Bugünkü tərkibdə Böyük Elmi Şuranın daha bir iclasının qaldığını, bundan sonra yeni tərkibin seçiləcəyini söyləyən rektor bildirdi ki, şurada tələbələr də təmsil olunacaq və bütün kafedra müdirlərinin şuranın üzvü olması şərt deyil.**



# BÖYÜK ELMİ ŞURADA

Rektor gündəliyə keçməzdən öncə Azərbaycan Tibb Universitetinin inzibati-təsərrüfat işləri üzrə prorektoru vəzifəsinə yeni təyin olunan Tağı Əhmədovu şura üzvlərinə təqdim etdi və "Azərbaycan Tibb Universitetində 2016/2017-ci tədris ilinin yekunları və 2017/2018-ci tədris ilində universitet kollektivi qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevə verdi.

S.Əliyev respublikamızda təhsil sahəsində aparılan islahatların əsasını "Təhsil millətin gələcəyidir" deyən ümummilli lider Heydər Əliyevin qoyduğunu, Ulu Öndərin bu sahədə başladığı siyasəti dövlət başçısı İlham Əliyevin uğurla davam etdirərək təhsil sferasını yeni inkişaf mərhələsinə çıxardığını diqqətə çatdırdı.



Azərbaycanda elmin, təhsilin, milli-mənəvi dəyərlərin dünya miqyasında tanınmasında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da xüsusi əməyinin olduğunu vurğulayan S.Əliyev ölkədə tibb təhsilinin və səhiyyənin inkişafına diqqət və qayğının günbəgün artdığını söylədi.

Prorektor onu da qeyd etdi ki, universitetimizin professor-müəllim heyəti, inzibati-təsərrüfat işçiləri və tədris-köməkçi heyəti, həmçinin tələbə və magistrant, doktorantları 2016/2017-cı hesabat ilində var gücləri ilə çalışmış, müstəqil ölkəmiz üçün yüksək ixtisaslı həkim, hərbi həkim, hərbi feldşer və əczaçı kadrlarının hazırlığında müəyyən nailiyyətlər əldə etmişdir.

Cari tədris ilində universitetin I kursuna 573 xarici ölkə vətəndaşının saziş əsasında ödənişli təhsil hüququ ilə qəbul olunduğunu (keçən il 199 nəfər) diqqətə çatdıran prorektor qeyd etdi ki, cari tədris ilində də universitetin "müalicə işi", "stomatologiya" və "əczaçılıq" ixtisaslarına daxil olan xarici tələbələrin böyük bir qismi ingilis dilində təhsil alanlardır. Bu, həmin fakültələrdə tədris aparan kafedralardan böyük məsuliyyət tələb edir. Həmin kafedralar gələcəkdə bu qruplarda tədris apara biləcək kadrların hazırlanması ilə ciddi məşğul olmalıdırlar.

Məruzəsində elmi-tədqiqat işlərinin nəticələrinə, universitetin tədris binalarında, klinikalarında, yataqxanalarında və həmçinin "Təbib" istirahət düşərgəsində müəyyən əsaslı və cari təmir işlərinin görülməsinə də yer ayıran prorektor keçən tədris ilinin payız və yaz semestrlərinin imtahan sessiyalarının nəticələri üzərində xüsusi dayandı: "2016/2017-ci ilin yaz semestrinin imtahan sessiyasının başlanğıcından 7 nəfər akademik məzuniyyətdə olmuşdur. Yaz semestri ərzində öz ərizələrinə görə 18 tələbə universitetdən xaric edilmişdir. Beləliklə, 6163 tələbə imtahanda iştirak etmiş, 780 nəfər isə imtahanda iştirak etməmişdir. İmtahan verməli olanlardan 5070 nəfəri bütün imtahanlarda müvəffəq qiymətlər alaraq, sessiyanı başa vurmuşlar (94,1%, keçən il 91,5%). İmtahan sessiyasını "əla" qiymətlərlə başa vuranlar – 969 nəfər (18%, keçən il 21,4%), "əla" və "yaxşı" qiymətlərlə – 2153 nəfər (34,9%, keçən il 40,4%), qarışıq qiymətlərlə – 1948 nəfər (31,6%, keçən il 29,7%) təşkil etmişlər. 313 nəfər (5,8%, keçən il 8,4%) "qeyri-kafi "almışdır ki, bunlardan da 229 nəfərin yalnız bir fəndən, 59 nəfərin 2 fəndən, 25 nəfərin isə 3 və daha artıq fəndən akademik borcu qalmışdır.

Ümumiyyətlə, Tibb Universiteti üzrə kəmiyyət göstəricisi 94,1% (2015/2016-cı tədris ili – 91,5%), keyfiyyət göstəricisi 58% (2015/2016-cı tədris ili – 61,8%) olmuşdur ki, bu da göründüyü kimi kəmiyyət göstəricisi müqayisədə bir qədər artmış, keyfiyyət göstəricisi isə azalmışdır".

S. Əliyev universitetimizə bu il qəbul olunmuş tələbələrin test imtahanlarında yüksək nəticələr göstərməsini xüsusi qabardaraq bildirdi ki, Prezidentimiz İlham Əliyev cənablarının sərəncamına əsasən təyin olunmuş 102 Prezident təqaüdçüsünün 26 nəfəri bizim universitetə daxil olmuşdur: "Artıq neçənci ildir ki, ən çox Prezident təqaüdçüləri universitetimizə daxil olur. Təəssüf ki, I kursun ilk imtahan sessiyasından başlayaraq Prezident təqaüdçülərinin sayı kəskin surətdə azalır. Belə ki, cari tədris ili istisna olmaqla, son 5 ildə universitetə 126 sayda Prezident təqaüdçüsü daxil olsa da, hazırda bu adı 37 tələbə daşıyır. Keçən tədris ilində Prezident təqaüdünə layiq görülmüş 25 tələbədən 2 sessiyanın nəticəsindən sonra yalnız 4 nəfər Prezident təqaüdçüsü kimi təhsilini başa vura bilmişdir. Bütün şura üzvlərinə müraciət edərək bir fikrimi çatdırmaq istəyirəm ki, Prezident təqaüdçülərinin böyük əksəriyyəti kompyuter vasitəsilə test imtahanlarında 48-50 ballıq nəticə göstərir. Dərsə davamiyyətləri çox yaxşıdır, ev tapşırıqlarını tamamilə icra edirlər. Lakin gündəlik sorğularda onların bilikləri qiymətləndirilərkən az bal toplayırlar və ya düzünü desək, onlara az bal yazılır. Bu kateqoriyadan olan tələbələrlə gərək elə işləyək ki, onların böyük əksəriyyəti bu adı universiteti bitirənədək saxlaya bilsinlər".

S.Əliyev çıxışının sonunda universitet kollektivinin cari tədris ilində əvvəllər buraxılmış nöqsanları aradan qaldırmağa, tələbələrlə aparılan tədris və tədris-metodik işi günün tələblərinə uyğun qurmağa çalışacaqlarına əminliyini bildirdi.

Universitet üzrə mərkəzləşmiş apellyasiya komissiyasının sədri, professor Surxay Musayev apellyasiya araşdırmalarının nəticələri haqqında şura üzvlərinə məlumat verərək bildirdi ki, 6 nəfərdən ibarət komissiya imtahanlardan şikayətləri olan tələbələrin müraciətlərini araşdırmışdır: "Apellyasiya araşdırmaları nəticəsində bu müraciətlərin 186-da (60,6%) testlərdə müxtəlif xarakterli qüsurlar, bir-birini təkrar edən suallar olduğu üçün tələbələrin iddiaları əsaslı hesab olunmuş, toplanmış balın düzəldilməsi təklif edilmişdir. 121 tələbənin müraciəti test suallarına düzgün cavab vermədikləri üçün əsassız hesab olunmuşdur. Apellyasiyanın nəticələri fakültələr, kurslar üzrə, test sayına, müraciətlərin sayına, tələbələrin sayına, fənlər üzrə, günlər üzrə təhlil olunmuşdur. İmtahanlar başa çatandan sonra müxtəlif səbəblərdən imtahanlara gəlməyən, buraxılış fənlərdən kəsiri qalan 718 tələbə 7-11 iyul 2017-ci il tarixdə imtahan vermişdir. Onlardan 18 tələbə apellyasiya şikayəti vermişdir. 4 tələbənin müraciəti əsaslı, 14 tələbənin müraciəti isə əsassız hesab olunmuşdur".

Məruzə ətrafında çıxış edən IV daxili xəstəliklər kafedrasının müdiri, professor Əlihüseyn Hidayətov test imtahanlarının yalnız nəzəri bilikləri qiymətləndirmək üçün yetərli olduğunu, kliniki təfəkkürü inkişaf etdirmək üçün isə kifayət etmədiyini dedi.

Tibbi biologiya və genetika kafedrasının müdiri, professor Canbaxış Nəcəfov çıxışında kafedrada mikroskop, "elektron cədvələ keçid" və auditoriyalardakı sıxlıqla bağlı mövcud problemlərə toxundu.

Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, dosent Akif Miriyev isə kafedrada testlərin hazırlanmasında yol verilən qüsurların aradan qaldırılması üçün görülən tədbirlərdən danışdı.

Rektor Gəray Gəraybəyli müzakirələrə yekun vuraraq məruzə və çıxışlarda səslənən fikirlərə münasibətini açıqladı: "Biz bu gün Sabir müəllimin çox əhatəli məruzəsini dinlədik. Mən də bəzi məqamlara toxunmaq istərdim. Hamı bilir ki, əgər universitetə tələbə gəlirsə, universitetin adı onu cəlb edirsə, deməli, universitetin reytinqi yüksəkdir. Çox şükürlər olsun ki, uzun illərdir universitetimiz öz yüksək reytinqini qoruyub saxlaya bilir. Amma bu heç də o demək deyil ki, bütün işlər hamımızı razı salır. Təbii ki, bir çox problemimiz var. Keçən il xarici tələbələrlə bağlı böyük bir məsələ həll olundu. 147 tələbə IV, V kursda oxuyarkən hələ II kursun imtahanlarını verməmişdi. Amma sənədlərdə bu imtahanlar verilmiş kimi qeyd olunub. Bu materiallar bu gün də təhlil olunur, bu heç də o demək deyil ki, 6 nəfəri cəzalandırmaqla və yaxud islah etməklə bütün məsələləri həll etmiş oluruq".



Universitetimizin reytinqinin gələcəkdə də yüksək olması üçün hələ çox çalışmağın zəruriliyinə toxunan rektor xatırlatdı ki, 20 il bundan əvvəl Azərbaycanda oxuyan tələbə belə asanlıqla Türkiyəyə, Almaniyaya və ya digər ölkələrə köçürülə bilməzdi. İndi bu var və rəqabəti daha da artırır: "Bizim I kursdan VI kursa qədər, səhv etmirəmsə, tələbələr sırasında.166 boş yerimiz var. Bunların əksəriyyəti oxuduqları müddətdə çıxıblar. Bu gün də mən 3 ərizəyə qol çəkmişəm. Hansı ki, III, IV kurs tələbələridir, artıq universitetdən xaric olurlar. Əgər bu tendensiya davam etsə, mövcud şəraitdə universiteti kifayət qədər ciddi problemlər gözləyir".

Xarici tələbələrin universitetə cəlb olunmasında da müəyyən problemlərin yarana biləcəyini vurğulayan G.Gəraybəyli bildirdi ki, biz heç də qapılarımızı açıb bütün xarici tələbələri qəbul etmirik. Bu ildən 5 nəfərdən ibarət komissiya tərəfindən müəyyən orta bal təyin olunub və ondan aşağı bal toplayan xarici tələbələr universitetə qəbul edilmir.

Test imtahanlarının təkmilləşdirilməsi yollarından da danışan rektor "hazır cavablı testlər"in satılmasına kəskin iradını bildirdi və bu kimi neqativ halları dərsliklərin oxunmasına ən ciddi maneə kimi dəyərləndirdi.

Hərbi Tibb Fakültəsində keçid balının 450-yə qaldırılması ilə fakültənin sayda itirsə də, keyfiyyətdə qazandığını deyən universitetin rəhbəri yekun nitqində "Elektron Universitet"ə keçidlə bağlı tövsiyələrini verdi və digər məsələlərə də aydınlıq gətirdi.

Azərbaycan Tibb Universitetində kafedra müdiri və fakültə dekanı vəzifələrinin tutulması üçün seçki aparan komissiyanın yeni müddətə tərkibini təsdiqləyən Böyük Elmi Şura professor Nəsibə Hüseynovanı "I Uşaq xəstəlikləri" kafedrasının, professor Zöhrab Qarayevi "Ortopedik Stomatologiya" kafedrasının məsləhətçi-professoru vəzifəsinə seçdi.

"Tibbi-profilaktika" fakültəsinin adının dəyişdirilərək "İctimai səhiyyə" fakültəsi adlandırılması, "İmmunologiya" kursu və "Klinik allerqologiya və İmmunologiya" kurslarının birləşdirilməsi, I, II, III Uşaq Xəstəlikləri kafedralarının iki kafedrada birləşdirilməsi barədə təklifləri də təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# Belarusun səhiyyə naziri ATU-nun qonağı olub

**Sentyabrın 28-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Belarus Respublikasının səhiyyə naziri Valeriy Malaşkonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Azərbaycan və Belarus arasında tibb təhsili sahəsində münasibətlərin inkişafı, hər iki tərəfin ali məktəbləri arasında əlaqələrin möhkəmləndirilməsinə dair müzakirələr aparılıb. Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli ölkədə yeganə tibb təhsili ocağı olan bu universitetin əldə edilən uğurları barədə qonağa məlumat verib. ATU-da 6 illik baza təhsil sisteminin mövcud olduğunu qeyd edən rektor, burada əsas məqsədin tələbələrin daha rahat şəraitdə təhsilinə nail olmaqdan ibarət olduğunu deyib: "Universitetin tədris sistemində islahatlar aparılır. Əsasən tələbələrin istəklərini nəzərə alırıq. Məhz onların təklifləri əsasında bəzi kliniki fənlərin saatını artırmışıq".

Rektor G.Gəraybəyli ATU-nun nəzdində fəaliyyət göstərən Stomatoloji, Onkoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikalarının işi haqqında da məlumatı qonağın diqqətinə çatdırıb. O, bildirib ki, klinikalarımızda dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir tibbi avadanlıqlar quraşdırılıb. Bu cihazların köməyi ilə müayinə və müalicə işini ən yüksək səviyyədə həyata keçirmək mümkündür.

Belarus Respublikasının səhiyyə naziri Valeri Malaşko Azərbaycanın Səhiyyə Nazirliyi ilə sıx əlaqələrin olduğunu qeyd edib: "Nazirlər səviyyəsində yaxın münasibətlər mövcuddur. İnanıram ki, birgə atılacaq addımlar yalnız fəaliyyətimizdə müsbətə doğru dəyişiklikləri gətirib çıxaracaq".

Nazir V.Malaşko bildirib ki, Belarus Respublikasında dörd tibb təhsili verən universitet fəaliyyət göstərir. Bunlardan ən böyüyü paytaxt Minskdə yerləşən Belarus Dövlət Tibb Universitetidir. Digər ali tibb məktəbləri isə Qomel, Qrodno və Vitebskdədir. Tibb universitetlərinin hər birində tələbələrin yüksək səviyyəli kadr kimi yetişməsi üçün hər cür şərait yaradılıb.

Görüşdə o da qeyd olunub ki, Azərbaycan Tibb Universiteti xarici tələbələrinin sayına görə ölkədə ilk yeri tutur. Hazırda 26 ölkədən 1500-ə yaxın xarici tələbə ATU-da müxtəlif pillələrdə tibb, əczaçılıq, stomatologiya ixtisasları üzrə təhsil alırlar.

Bundan sonra iki ölkənin tibb universitetləri arasında əməkdaşlığın yaradılması, ikitərəfli sazişlərin hazırlanması, kadr hazırlığı məsələləri, o cümlədən həkim, tələbə, rezident mübadiləsi, müəllimlərin təcrübə mübadiləsinin həyata keçirilməsi ilə bağlı birgə fəaliyyətin icra olunması haqqında fikir mübadiləsi aparılıb.

# Azərbaycanlı cərrah "İFSO-2017" Beynəlxalq Konqresdə iştirak edib

**Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri professor Taryel Ömərov "IFSO-2017" (International Federation for the Surgery of Obesity and Metabolic Disorders -IFSO) beynəlxalq elmi konqresdə iştirak edib. 2 minə yaxın iştirakçısı olan bu tədbirdə dünyanın 100-ə qədər dövlətindən cərrahlar qatılıb.**





THE INTERNATIONAL FEDERATION FOR THE SURGERY OF OBESITY AND METABOLIC DISORDERS

IFSO

WISHES TO THANK

Taryel Omerov

FOR HAVING ACTIVELY PARTICIPATED IN IFSO'S ACTIVITIES, DEVELOPING WEIGHT RELATED METABOLIC SURGERY IN HIS SOCIETY, HIS COUNTRY AND THROUGHOUT THE WORLD AND FOR HAVING IMPROVED HIS PATIENTS' LIVES

XXII World IFSO Congress in London 2017

Kelvin Higa, MD
2017 IFSO President

Taryel Ömərovun sözlərinə görə, "İFSO 2017" dünya konqresində Bariatrik-Metabolik cərrahiyyəsi sahəsi ilə məşğul olan mütəxəssislər iştirak ediblər. Konqres zamanı bu sahəyə aid son elmi nailiyyətlər barəsində məlumat verilib, təcrübə mübadiləsi aparılıb.

T.Ömərov qeyd edib ki, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının uğurlu fəaliyyəti sayəsində artıq azərbaycanlı cərrahları dünyanın bir çox yerində tanıyırlar: "Son 5 ildə bu yolda apardığımız işlər tanınır. İstər praktik, istərsə də nəzəri baxımdan fəlaiyyətimiz yüksək qiymətləndirilib. Bu konqresdə IFSO-nun təşəkkür sertifikatına layiq görüldük. Bu, bizim üçün qürurverici bir andır".

**ATU-nun mətbuat xidməti**

# Professor Vaqif Şadlinskidən tələbələrə TÖVSİYƏ –

## Hər bir həkim insan bədəninin quruluşunu mütləq öyrənməlidir

**Azərbaycan Tibb Universitetinin İnsan Anatomiyası kafedrasının müdiri, tibb elmlər doktoru, professor, ə.e.x., Rusiya T.E.A.-nın üzvü Vaqif Şadlinski yüksək ixtisaslı həkim olmaq üçün anatomiya fənninin önəmi haqqında ATU-nun Tədris Terapevtik Klinikasının mətbuat xidmətinə açıqlama verib.**



Onun sözlərinə görə, anatomiya elmi təbabətin yarandığı dövrdən bu günə qədər öyrənilməyə başlayıb.

"Tibb ocaqlarının hər birində anatomiya elmini tədris etməyə başlayıblar. Hətta, başqa universitetlərdə də anatomiyanın tədrisi vacib buyrulurdu. Çünki dünyanın ən ali neməti, yaradıcısı insandır. Heç bir həkim insan bədəninin quruluşunu bilmədən bu peşəyə istədiyi kimi yiyələnə bilməz. Ona görə də böyük alimlər də bunu qeyd edib ki, anatomiyasız tibb yoxdur. Əgər insan bədəninin quruluşunu bilmirsə, bunu təcrübədə necə izah edə bilər? Məsələn, bu gün biz qaraciyər haqqında tələbələrə məlumat veririk. Qaraciyər bədənin hansı hissəsində yerləşir, necə inkişaf edir? Özünü həkim adlandıran hər bir şəxsin bilməsi vacib olan şərtlərdən biri də bədəndə neçə boşluğun olmasıdır. Belə deyək, kəllə boşluğunun hansı sümüklər vasitəsilə qorunduğunu bilməyən insan, həkim ola bilərmi?..".

Professor onu da qeyd edib ki, hələ o vaxtlar insanlar xalq təbabətinin vasitəsilə problemlərinə çarə tapa bilirdilər.

"O dövrdə, yəni təbabətin inkişaf etdiyi zamanlarda din xadimləri insan bədəninin quruluşunu öyrənməkdə bir çox maneələr törədirdilər. Hətta, orta əsrlədə həkimlər var idi ki, onlar insan bədəninin quruluşunu öyrənən zaman təcavüzə məruz qalmışdılar".

Professor deyir ki, tibbi biliklərin təcrübi biliklərlə əlaqəsini yaratmaqda ən vacibi insan bədəninin quruluşunu bilməkdir.

"Ona görə də bədən üzvlərini öyrənmək üçün ilk növbədə, insan bədənində bir orqanın hansı nahiyyədə yerləşməsi, orqanın hansı üzvə yaxınlığı, orqanın skelete olan münasibətini bilmək önəmlidir. Bunların hamısı bir yerdə təbabətdə topoqrafiya adlandırılır. Topoqrafiya - orqanın yerləşdiyi nahiyyə, orqanın skeletə olan münasibəti, orqanın üzvə olan münasibətidir. Zamanla bu üzvlərin cərrahi müdaxiləsindən sonra cərrahi anatomiya da meydana gəlib".

İnsan bədənini öyrənən alimlərdən də danışan professor Qalenin adını xüsusilə vurğulayıb.

Tələbə və rezidentlərə öz tövsiyəsini verən V.Şadlinski onlara təhsil aldıqları dövrdə öz ixtisaslarına yüksək səviyyədə yiyələnməyin vacibliyini vurğulayıb.

"Tələbələr universiteti bitirib gedəndən sonra düşünməməlidir ki, mən bu ixtisası bitirmişəm. Zamanında onlar vacib olan tibbi bilikləri mənimsəməlidirlər. Onlar öz seçdikləri ixtisas ilə yanaşı, anatomiya fənnini də bilməlidirlər. Çünki bədənin quruluşunu, hansı orqanın hansı nahiyyədə yerləşməsini bilməyən tələbə gələcəkdə necə aparıcı həkimi ola bilər ki? Onlar tibbdə normal anatomiyadan tutmuş, normal fiziologiya, pataloji fiziologiya, pataloji anatomiya, həm də biokimyəvi analizlərə qədər dərinliklərə sahib olmalıdırlar. Bunu da hamısı bir yerdə təməl bilikləri adlandırılır. Bu təməl biliklərini bilməyən həkimdən həkim ola bilməz".

Dünyanın ən istedadlı şəxsiyyətlərinin anatomiya ilə məşğul olduğunu vurğulayan V.Şadlinski I Pyotr, Lenardo Da Vinçi kimi insanların bədən quruluşunu bilmək üçün anatomiya elminin sirlərini öyrəndiklərini deyib.

# Kəskin obstruktiv bronxit zamanı uşaqlarınızı qripdən qoruyun!

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında pediatr-allerqoloq, ə.e.x., professor Amaliya Əyyubovanın xəstə təhlili ilə bağlı görüşü keçirilib.



Görüşdə klinikanın müəllim heyəti, tələbə və rezidentlər iştirak ediblər.

A.Əyyubova kəskin obstruktiv bronxitdən əziyyət çəkən azyaşlı ilə bağlı məlumat verib.

Kəskin obstruktiv bronxitdən danışan pediatr-allerqoloq bildirib ki, bronxoobstruktiv sindrom küylü tənəffüs və fitverici nəfəsvermə ilə özünü büruzə verir:"Bronxlarda baş verən iltihab zamanı selikli qişanın ödemi və qalınlaşması müşahidə olunur. Bu dövrdə yataq rejimi təyin edilir ki, bu da xəstədə müşahidə edilən qızdırma halları ilə bağlıdır. Çünki adətən, qızdırma 1-2 gün davam edə bilər. Təngnəfəslik və qızdırma zamanı da içilən mayeni artırmaq məsləhət görülür".

Xəstəliyin əsas əlamətlərini qeyd edən, professor A.Əyyubova valideynlərə bu zaman çox diqqətli olmalarını tövsiyə edib: "Uşağında ekspirator təngnəfəslik və tutma şəkilli əvvəl quru, sonralar isə yaş öskürək müşahidə edən hər bir valideyn övladını zamanında həkimə aparmalıdır. Əks halda xəstəlik daha da ağırlaşacaq. Xırıltılı tənəffüs və köməkçi əzələlərin tənəffüsdə iştirakı, döş qəfəsinin emfizematoz genişlənməsi də meydana gələcək".

Sözünə davam edən professor xüsusilə vurğulayıb ki, belə uşaqları mütləq qripdən qorumaq lazımdır: "Çünki virus yayılanda xəstəlik daha da ağırlaşmağa doğru gedir. Bu zaman qrip əleyhinə olan dərmanlardan istifadə vacibdir".

Qeyd edək ki, klinikamızda xəstə təhlili ilə bağlı keçirilən görüşlər silsilə xarakteri daşıyır.

# "Tibbi etika və həkimlərin hüquqları" mövzusunda seminar keçirilib

Sentyabrın 21-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının və "HəkimTap" kompaniyasının təşkilatçılığı ilə tibbin ən aktual məsələləri olan "Tibbi etika. Deontologiya. Tibb işçilərinin subordinasiya qaydaları" və "Həkimlərin hüquqları" mövzularında seminar keçirilib







Seminarda ATU-nun psixiatriya kafedrasının əməkdaşı, psixiatr Ceyhun Məmmədzadə "Tibbi etika. Deontologiya. Tibb işçilərinin subordinasiya qaydaları", hüquqşünas Ədalət Dəmirov isə "Həkimlərin hüquqları" mövzusunda çıxış ediblər.




Çıxışlardan sonra müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Seminarın sonunda iştirakçılara sertifikartlar təqdim olunub.

# Üçaylıq uşaq üzərində əməliyyat aparıldı

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının uşaq cərrahiyyəsi şöbəsində bütün yaş dövrlərinə aid uşaqlara müasir, ixtisaslaşmış cərrahi yardım göstərilir. İndiyədək klinikanın cərrahları tərəfindən bir çox körpə əməliyyat olunaraq öz sağlamlığına qovuşub.**

Belə əməliyyatlardan biri də bu günlərdə 3 aylıq Rəsul Əlizadə üzərində aparılıb. "Hirşprunq" diaqnozu qoyulan bu körpədə bağırsaq keçməzliyi əlamətləri aşkar edilib. Valideynləri bildirib ki, bundan əvvəl bir neçə klinikaya müraciət etsələr də, orada təklif olunan müalicə və üçmərhələli əməliyyat üsulu ilə razılaşmayıblar.

Tədris Cərrahiyyə Klinikasının uşaq cərrahiyyəsi şöbəsinin müdiri, dosent Ramiz Poluxovun sözlərinə görə, klinikada diaqnoz təsdiqlənib: "Lakin biz yüksək ixtisaslaşmış anestezioloji-reanimatoloji xidmətləri nəzərə alaraq, xəstənin bir mərhələli – transanal yolla yoğun bağırsağın rezeksiyası- koloanal anastomozun qoyulması əməliyyatını təklif etdik. Beləliklə, sentyabrın 15-də körpə əməliyyat olundu. Əməliyyatdan bir sutka sonra xəstə qidalandırılmağa başlanıldı. Bir həfdə sonra xəstə kafi vəziyyətdə evə ambulator müalicəyə göndərildi".



Cərrah R.Poluxovun sözlərinə görə, bu əməliyyat ən müasir əməliyyatlardan biri hesab olunur. Xəstəyə koloanal anastomoz qoyulur. Bu zaman qarının ön divarında heç bir kəsik aparılmadığına görə kosmetik defekt yaratmır.

**Fotolar Cənnətalı Çingizindir**

# Mikrobiologiya və immunologiya kafedrasının nümayəndəsinin layihəsi "Lanset" jurnalında dərc olunacaq

**2017-ci ilin Yanvar ayında Dünya Səhiyyə Təşkilatı (WHO) Almaniyanın Tübingen University-in professoru Evelina Tacconelli-in rəhbərliyi ilə "Müalicə rəhbərinin yaradılması üçün patogenlərin prioritetləşdirilməsi, vərəm daxil olmaqla antibiotiklərə davamlı bakteriyaların müalicəsində yeni antibiotiklərin araşdırılması və kəşfi" adlı layihəyə başlanılıb.**

Layihədə Avropa dövlətləri ilə yanaşı ABŞ, Braziliya, Koreya, Malaziya iştirak ediblər. Azərbaycanı ATU-nun Mikrobiologiya və İmmunologiya kafedrasının assistenti Fidan Otello qızı Yılmaz təmsil edib. Aparılan tədqiqatın nəticəsi Dünya Səhiyyə təşkilatının rəsmi saytında yer almaqdadır (http://www.who.int/.../ration.../prioritization-of-pathogens/en/).







Həmçinin nəticələr tibb sahəsində nüfuslu jurnallardan biri olan Lanset jurnalında yaxın günlərdə dərc olunacaq.

ATU-nun mətbuat xidməti

# Əməkdaşlarımız Avropa Klinik Mikrobioloqlar və İnfeksion Xəstəliklər Cəmiyyətinin konqresində

**Bu günlərdə Vyanada Avropa Klinik Mikrobioloqlar və İnfeksion Xəstəliklər Cəmiyyətinin (ECCMİD) XXVII konqresi keçirilib. Bu nüfuzlu tədbirdə Azərbaycan Tibb Universitetinin mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları–dosent Vidadi Nərimanov, professor Nigar Ağayeva, dosent Həyat Əliyeva və assistent Fidan Bağırova iştirak ediblər. Konqresdə Böyük Britaniya, ABŞ, Almaniya, Fransa, İtaliya, İspaniya, Avstriya, İsveçrə, Hollandiya və Belçika daxil olmaqla dünyanın 126 ölkəsindən 12500-dən çox aparıcı mütəxəssis iştirak edib.**



ECCMİD-in konqresində mikrobiologiya və immunologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru, Tibbi Mikrobioloqlar və İmmunoloqlar İctimai Birliyinin məsul katibi Vidadi Nərimanov poster məruzəsi ilə çıxış edib. Dosent V.Nərimanovun sözlərinə görə, bu il təşkil olunmuş beynəlxalq konqres klinik mikrobiologiya və infeksion xəstəliklərin diaqnostikası üzrə ən böyük tədbirlərdən hesab olunur: "Belə böyük konqreslərdə iştirak etmək bizə xarici həmkarlarımızla təcrübə mübadiləsi aparmağa, xarici mütəxəssislərin əldə etdiyi yeniliklər və nailiyyətlərlə tanış olmağa gözəl imkan yaradır. Kafedramızın əməkdaşlarının hər il belə mötəbər konqres və konfranslarda aldıqları yeni məlumatlar ATU-nun klinik mikrobioloji laboratoriyasında diaqnostik proseslərdə, mikrobiologiya və immunologiya kafedrasında tədris prosesində – mühazirə və təcrübi məşğələlərdə tətbiq edilir".

Qeyd edək ki, konqresə klinik mikrobiologiya və infeksion xəstəliklərin diaqnostikasının bütün sahələrini əhatə edən 200-dən çox elmi sessiya, 27 interaktiv simpozium daxil edilib, 4500 tezis müzakirə edilərək nəşr olunub. Konqesin mövzusu klinik mikrobiologiya və infeksion xəstəliklərin müasir problemlərinə: antibiotiklərə qarşı rezistentlik və problemli antibakterial müalicə, biotəbəqələr ilə əlaqəli infeksiyalar, sepsis, göbələk infeksiyaları (mikozlar), virus hepatitləri, qazanılmış immun çatışmazlığı sindromu (QİÇS), mikrobioloji diaqnostikanın müasir aspektləri (yanaşmaları) və s. həsr edilib.

# Azərbaycanda İcbari Tibbi Sığorta və KAHEKON-2017

## *(Beynəlxalq Qaradəniz Ailə Həkimləri Konqresi)*

**Sentyabrın 14-dən 17-dək Bakıda «Azərbaycanda İcbari Tibbi Sığorta və KAHEKON-2017» mövzusunda Beynəlxalq Qaradəniz Ailə Həkimlərinin 6-cı konqresi keçirilib.**



Məlumat üçün bildirək ki, Beynəlxalq Qaradəniz Ailə Həkimləri konqresi 2009-cu ildən fəaliyyət göstərir. Yarandığı vaxtdan indiyədək KAHEKON konqreslərinə türk ailə həkimləri ilə yanaşı, İngiltərə, Hollandiya, Belçika, Almaniya, İspaniya, Yunanıstan, Gürcüstan və s. ölkələrin ailə həkimləri qatılmışlar.

Bu il ölkəmizdə təşkil olunan konqres isə Bakı şəhərində İcbari Tibbi Sığorta Dövlət Agentliyi, Azərbaycan Təbiblər Birliyi, Gəncə Beynəlxalq Xəstəxanası, Trabzon Ailə Həkimləri Dərnəyi, Qaradəniz Teknik Universiteti tibb fakültəsinin iş birliyi və dəstəyi ilə həyata keçirilib.

Açılışı Türkiyə tərəfindən Trabzon Ailə Həkimləri Dərnəyinin Başkanı Hakan Uzun, Azərbaycandan isə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev ediblər. Konqresdə Gəncə Beynəlxalq Xəstəxanasının direktoru İlyas Həsənov, Azərbaycan Təbiblər Birliyinin müdiri Nəriman Səfərli, Qaradəniz Texniki Universitetinin tibb fakültəsinin Ailə Həkimliyi kafedrasının müdiri Turan Set, Ailə Həkimləri Dərnəkləri Federasyonunun müdiri Erkut Coşkun, Bakı Ürək Mərkəzinin müdiri, millət vəkili Rəşad Mahmudov, Türkiyənin Sağlık Bakanlığının təmsilçisi Halil Şen və başqaları çıxış ediblər.

Konqresdə çıxış edən ATU-nun ailə təbabəti kafedrasının müdiri, Beynəlxalq Ekoenergetika Akademiyasının professoru, əməkdar həkim Mustafa Salihov "Azərbaycanda İcbari Tibbi sığorta və Ailə təbabəti" adlı məruzəsində respublikamızda ailə təbabətinin tarixinə, keçdiyi yola və qarşıda duran planlara, icbari tibbi sığorta sisteminə keçid zamanı ortaya çıxan problemlərə toxunub. O, qeyd edib ki, Azərbaycanda ATU-nun poliklinik terapiya kafedrasının bazasında ailə təbabəti kafedrası yarandığı gündən tələbələrə ailə həkimliyi və sığortalı təbabət prinsipləri kafedra əməkdaşları tərəfindən tədris edilir. Əgər gələcəkdə respublikamızda "Ailə həkimi haqqında" qanun qəbul edilərsə, rezidentura pilləsində yüksək səviyyəli kadrların hazırlanması işinin məhz bu kafedraya həvalə olunması məqsədəuyğun olardı.

Konqresin gedişində Türkiyənin müxtəlif universitetlərindən gələn professorlar, dosentlər, uzman həkimlər, eləcə də Azərbaycanda müxtəlif ixtisaslar üzrə çalışan həkimlər müasir tibbin aktual məsələləri, tez-tez rast gələn xəstəliklər barədə slayd şoular təqdim ediblər. Konqresdə arterial hipertenziya, şəkərli diabet, piylənmə, hepatitlər, vərəm, varikoz xəstəliyi, pnevmoniya, uşaqlarda sidik yollarının infeksiyası, revmatizm kimi xəstəliklərin ailə həkimi səviyyəsində ən müasir müayinəsi və müalicəsi, peyvənd təqvimləri, immun sistem xəstəlikləri, dərman vasitələrinin düzgün istifadəsi kimi mövzular haqqında danışılıb. Mövzular ətrafında dinləyicilər arasında müzakirələr aparılıb.

Ayrıca Mingəçevir və Yevlax ailə həkimləri üçün təcili tibbi yardım, hipnoz, laborator müayinələrə həsr olunmuş kurslar təşkil olunmuşdur.

KAHEKON- da ailə həkimliyinin və icbari sığortanın hüquqi tərəfləri, dünyada və ölkəmizdə tətbiqinin son durumu haqqında ortaya çıxan problemlər və onların həlli məsələləri araşdırılıb.

4 gün davam edən konqresin təşkilatçılıq səviyyəsindən razılıq bildirən qonaqlar bu cür tədbirlərin ölkəmizdə tez-tez keçirilməsini arzu ediblər.

**Xumra Axundova,**
**İlahə Rəsul,**
*Ailə təbabəti kafedrasının assistentləri*

# Beynəlxalq Biokimya Konqresi

**Universitetimizin əməkdaşı, biokimya kafedrasının müdiri, professor Arif Əfəndiyev Avropa Biokimyaçılar Cəmiyyətində "Biokimyanın Tədrisi" üzrə işçi qrupunun üzvü olaraq Turkiyə Respublikasının Ərzurum şəhərində 19-23 sentyabr 2017-ci il tarixində baş tutan Beynəlxalq Biokimya Konqresi və 28-ci Milli Biokimya Konqresinə 2 məruzə üzrə məruzəçi qismində rəsmi dəvət olunmuşdur.**




Sentyabrın 21-də panel sessiyadakı "Azərbaycanda biokimyanın tədrisi", sentyabrın 22-də isə "Talassemiya testlərinin antioksidant stress və endogen antimikrob peptidlərlə əlaqəsi" adlı məruzəsi iştirakçılar tərəfindən maraqla qarşılanmışdır. Ümumilikdə 500-dən çox iştirakçısı olan bu konqres işini uğurla başa vurmuşdur.

# K.SALAYEV: “Hazırda əsas işimiz epilepsiyalı xəstələrə tətbiq olunan dərmanların yan təsirlərini araşdırmaqdır”

Azərbaycan Tibb Universiteti öz nüfuzunu ölkəmizdə bu gün də qoruyub saxlayır və beynəlxalq arenada bu nüfuz ildən-ilə artır və daha çox tanınır. Elə bu səbəbdəndir ki, ATU əcnəbilərin ən çox üz tutduğu etibarlı ali təhsil müəssisələrindəndir. Universitetin məzunlarının səs-sorağı isə Avropanın ən tanınmış ali təhsil müəssisələrindən və tibb ocaqlarından gəlməkdədir. Bu, olduqca sevindirici haldır. Biz həmişə belə məzunlaımızla fəxr etmişik. Onlardan biri də Kamran Əli oğlu Salayevdir.

Kamran Salayevi oxucularla yaxından tanış etmək üçün onun tibb sahəsində qazandığı nailiyyətlər və gördüyü işlərlə bağlı məlumat vermək qərarına gəldik. Qeyd edək ki, K.Salayev 2009-cu ildən etibarən Azərbaycan Tibb Universitetinin nevrologiya və tibbi genetika kafedrasında çalışır. O, 1995-ci ildə Bakıdakı 134 saylı orta məktəbi bitirib. 1995-2001-ci illərdə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsində təhsil alıb. 2003-2007-ci illərdə isə Yaponiyanın Tohoku Universitetinin pediatriya bölümündə aspitranturada oxuyub. Yaponiyanın Senday şəhərində “Kohnan” Neyrocərrahiyyə Xəstəxanasında çalışıb. Senday Şəhər Xəstəxanasında yeni doğulmuşların intensiv terapiya şöbəsində kurs keçib. Tibb üzrə fəlsəfə doktorudur.

**- Kamran həkim, bildiyimizə görə, siz tibb təhsilinizi Yaponiyada davam etdirmisiniz. Bu, sizin üçün çətin olmadı ki?**

-- Xeyr, elə bir çətinlik olmadı. Bəli, aspirantura təhsilimi Yaponiyanın Tohoku Universitetində almışam. Möcüzələr ölkəsində oxumaq çox xoş oldu. Bu, Yaponiya səfirliyi vasitəsilə həyata keçdi. Yaponiyaya tək getmədim. Mənimlə birgə Ülviyyə xanım Aslanova da adı çəkilən universitetin pediatriya bölümündə oxudu. Biz həmçinin Yaponiyanın Neyrocərrahiyyə Xəstəxanasında 2 professorun - F.Linnima və N.Nakasatonun rəhbərliyi altında təcrübə keçdik.

Təcrübəmizi dərmana tabe olmayan epilepsiyalı uşaq və böyüklər üzərində aparırdıq. Uğurlu nəticələr əldə etdik. Orada təhsil aldığımız müddət ərzində bir neçə konfransda iştirak etdik və məqalələrimiz dərc olundu. 2007-ci ildə Bakıya qayıtdım. 2009-cu ildən universitetin nevrologiya kafedrasında çalışıram.

**- Yəqin ki, Yaponiyada qazandığınız təcrübəni ölkəmizdə tətbiq edirsiniz.**

- - Məlumdur ki, Yaponiyanın tibb sahəsi üzrə zəngin təcrübəsi var. Müasir texnolgiyalar və avadanlıqlarla təchiz olunmuş tibb müəssisələrindən öyrəndiklərimiz olduqca çoxdur. Onların hamısını bizdə tətbiq etmək imkanlarımız xaricində olsa da, elmi sahədə öyrəndiklərimizi təbliğ edə bilirik. Elə Yaponiyadan dönəndə də orada öyrəndiklərimlə bağlı bəzi elmi işlər üzərində işlədim və məqalələr dərc etdirdim. Hazırda əsas işimiz epilepsiyalı xəstələrə tətbiq olunan dərmanların yan təsirlərini araşdırmaqdır.



**- Son zamanlar autizmli xəstələrin sayının çoxalması müşahidə olunur. Bu, nə ilə əlaqədardır?**

- - Həqiqətən, son zamanlar autizmli xəstələrin aşkar olunması çoxalıb. Bunu konkret bir səbəblə izah etmək olmaz. Son vaxtlar autizm problemi ilə çox ciddi şəkildə məşğul oluruq. Adı çəkilən xəstəliklə bağlı bir neçə araşdırma və tədqiqat işləri aparılıb. Amma biz əsasən erkən diaqnostikanı inkişaf etdirmək niyyətindəyik. Çünki autizm uşaqlarda nə qədər tez aşkar olunarsa, biz bir o qədər tez onları müalicəyə cəlb edə bilərik. Bunun da müsbət effekti daha çox olur. Xəstəlik gec aşkar olarsa, yəni xəstəlik özünü 4-5 yaşlarında büruzə verərsə, müalicənin nəticələri elə də uğurlu alınmaz. Xəstələrə EEQ tətbiq olunur. Bizdə maqnit tomoqrafiya imkanları genişdir. Diaqnostikanın keyfiyyəti xeyli yaxşılaşıb. Doğrudur, 20-30 il öncə epilepsiya cərrahiyyəsi son qərar idisə, indi heç bir qorxusu yoxdur. Hazırda xəstələr epilepsiya cərrahiyəsi ilə uğurla əməliyyat olunur.

**Qabil ABDULLAYEV**

## Stress, psixoemosional gərginliyin öskürəyə səbəb olduğunu bilirdinizmi?

**Fizioloji olaraq öskürək yuxarı tənəffüs yollarının qıcıqlanması nəticəsində orqanizmin verdiyi qoruyucu cavab reaksiyasıdır.**




Öskürək çox sadə sayılan soyuqdəymə, zökəm, eyni zamanda xərçəng kimi ağır patoloji proseslərin əlaməti kimi də ortaya çıxır.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Pulmonologiya, allerqologiya şöbəsinin müdiri, assistent Kəmalə Ağayeva öskürəyi yaradan səbəblər haqqında danışıb.

O bildirib ki, öskürək haymorit, faringit, laringit, bronxit, ağciyərin spesifik və qeyri-spesifik iltihabi xəstəlikləri, eləcə də vərəm, pnevmoniya, bronxial astma və s. problemlərin nəticəsində yaranır: “Bundan başqa, mədə-bağırsaq sisteminin patologiyaları, daha çox refleks zamanı, eləcə də ürək-qan damar sisteminin patologiyalarında öskürək yarana bilər. Yuxarı tənəffüs yollarının infeksiyaları ilə bağlı olan öskürək normal halda bir neçə gün, bir həftə, uzaqbaşı iki həftə ərzində keçib getməlidir. Öskürək bu müddət ərzində keçib getmirsə, deməli, bunun səbəbi var və bu hal daha ağır fəsadlara səbəb ola bilər. Öskürək müalicəyə tabe olmursa, bu, həyəcan siqnalıdır. Bu halda mütləq mütəxəssis müayinəsindən keçmək vacibdir”.

K.Ağayeva onu da vurğulayıb ki, öskürək nevroloji, psixoloji problemlərin də əlaməti ola bilər: “Stress, psixoemosional gərginlik öskürəyə səbəb olur. Öskürək bəzən ağrılarla müşahidə olunur. Döş sümüyündə, boyunda ağrı ola bilər. Bunun səbəbini araşdırmaq lazımdır. Boyun fəqərələrində yaranan osteoxondroz da öskürək yaradır. Sinir sıxılması, əzələ gərginliyi zamanı çox gərgin olmasa da, sayrışan öskürək baş verir”.

Siqaret çəkənlərdə səhərlər yaranan bəlğəmli öskürəyi adi bir hal kimi dəyərləndirmək çox təhlükəli haldır: “Bu hal ağırlaşaraq tənəffüs, hətta ürək və ağciyər çatışmazlığına qədər inkişaf edir və hətta gələcəkdə ağciyər xərçənginə də səbəb ola bilər”.

**ATU-nun mətbuat xidməti**

## 29 sentyabr – Ümumdünya Ürək Günüdür

**2000-ci ildən etibarən, Dünya Ürək Federasiyasının təşəbbüsü ilə hər il 29 sentyabr “Ümumdünya Ürək Günü” kimi qeyd olunur.**



Ümumdünya Ürək Federasiyası 200-ə yaxın üzv təşkilatın birləşmiş icması vasitəsi ilə dünyanın 100-dən çox ölkəsində ürək xəstəliklərinə qarşı mübarizə aparır. Hər il dünyada 17,5 milyon insan ürək-damar xəstəlikləri səbəbindən ölür. “Ümumdünya Ürək Günü”nün keçirilməsində əsas məqsəd insanları ürək-damar xəstəliklərinin nə dərəcədə təhlükə doğurduğu barədə məlumatlandırmaq və bu xəstəliklərin qarşısının alınması istiqamətində vacib profilaktik tədbirlərin həyata keçirilməsidir. Dünya Ürək Federasiyası “Ümumdünya Ürək Günü”nü hər il fərqli şüarla qeyd edir. Bu il “Həyatına enerji qat!” (“Power Your Life”) şüarı seçilmişdir.

Aparılan tədqiqatlara görə ürək-damar xəstəliklərindən əziyyət çəkənlərin sayının çoxalması sosial faktorlar, ətraf mühitin təsiri, ekoloji amillər, düzgün qidalanmamaq və son illər artan psixi-emosional gərginliklə birbaşa əlaqəlidir. Ürək-damar xəstəliklərinə ürəyin işemiyası, hipertoniya, ateroskleroz, ürək qüsurları və s. daxildir. Bunlardan ən geniş yayılanı isə ürəyin işemik xəstəliyidir ki, bu da qəfil ölüm, miokard infarktı, ürək ritminin pozulması və ürək çatışmazlığı kimi özünü göstərir.

# ATU-nun tələbələri yataqxana ilə təmin edilib

**Məlum olduğu kimi, tələbələrin ən əsas ehtiyaclarından biri yataqxana ilə bağlıdır. Bu baxımdan, Azərbaycan Tibb Universitetində problem yoxdur. Belə ki, universitetin yataqxanaya ehtiyacı olan tələbələrinin hamısı yerləşdirilib.**



ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov bildirir ki, universitetin 6 yataqxanası var. ATU-nun 4 saylı yataqxanasında qaçqın və məcburi köçkünlər məskunlaşıb. Digər 5 yataqxananın ikisi qızlar, ikisi oğlanlar, biri isə xarici tələbələr üçün nəzərdə tutulub: “Hazırda yataqxanalarda 984 tələbə yaşayır. Yeni tədris ilində isə yataqxanada 1200 nəfəri yerləşdirmək imkanı var. Bunula da ATU demək olar ki, bütün tələbələrini yataqxana ilə təmin edə bilən yeganə ali təhsil müəssisəsidir. Qeyd edək ki, ATU-nun yataqxanalarında tələbələr üçün istirahət guşələri, oxu zalları, məişət otağı, 4 kabinəli hamam və Wi-Fi sistemi quraşdırılıb”.



Yataqxanaların müsbət cəhəti onların tədris binalarına bitişik və tam təmirli olmasıdır. Buna görə də tələbələr yataqxanadan dərsə getməyə cəmi 4-5 dəqiqə vaxt sərf edirlər.

C.Qasımovun sözlərinə görə, avqust ayının 1-dən yataqxanalarda tələbələrin yerləşməsi prosesinə start verilib: “Azərbaycan vətəndaşlarının yataqxana ilə təminatı 100 faiz yerinə yetirilib. Bu günə qədər 102 nəfər I kurs, 49 nəfər isə yuxarı kurs tələbələri yataqxanalarla təmin olunub. Xarici tələbələrin qeydiyyat prosesi isə hələ davam edir. Bu günə olan məlumata görə, 53 nəfər xarici tələbə yataqxana üçün qeydiyyatdan keçib. Belə deyək ki, bizim yataqxanada yer istəyib yersiz qalan tələbəmiz yoxdur”.

Yataqxanaya qeydiyat müqavilə vasitəsilə aparılır. Hər tələbə üçün bir ilik müqavilə hazırlanır. Müqavilənin şərtlərində yataqxananın nizam-intizamının qorunması, təmizliyə riayət məsələləri yer alıb. Təbii, müqavilədə həm ATU-nun, həm də tələbənin üzərinə düşən öhdəliklər qeyd olunub.

Cahangir Qasımov bildirir ki, ATU yataqxanalarında daha bir yenilik var. Belə ki, bu tədris ilindən etibarən digər universitet tələbələri də ATU yataqxanalarında yerləşə bilər: “Çünki biz Azərbaycan vətəndaşı olan tələbələrimizə 100 faizlik yer verdikdən sonra əlavə yerlərimiz qalırdı. Buna görə universitet rəhbərliyi ilə müzakirələrdən sonra qərara alınıb ki, bizə müraciət edən rezidentlərimizi yataqxana ilə təmin edək”.

Yataqxanada qalmaq hər bir tələbənin büdcəsinə uyğundur. Belə ki, yataqxanada qalmaq üçün hər ay üçün 50 AZN ödəniş tələb olunur. Qeyd edək ki, qiymət otaqlarda qalanların sayına görə dəyişir.

*Yubiley*

# Tələbələrin sevimli müəllimi

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Əmək gigiyenası və Uşaq-yeniyetmələr gigiyenası kafedrasının dosenti Səyyad Alı oğlu Gürzəliyevin anadan olmasını 70, elmi pedoqoji fəaliyyətinin 41 ili tamam olmuşdur.**



S.Gürzəliyev 20 avqust 1947-ci ildə Qazax rayonunun Canallı kəndində anadan olmuşdur. 1966-cı ildə İsmayıl Şıxlı adına Kosalar kənd orta məktəbini bitirdikdən sonra, həmin ildə Azərbaycan Tibb İnstitutunun Sanitariya gigiyena fakültəsinə daxil olmuşdur. 1972-ci ildə Tibb İnstitutunu bitirdikdən sonra Əli-Bayramlı (indiki Şirvan) şəhərinə təyinat almış, 1976-cı ilə qədər orada həkim – epidemioloq və təcili yardım stansiyasında praktiki həkim kimi çalışmışdır.

1976-cı ildə müsabiqə yolu ilə ATU-nun Əmək gigiyenası və sənəti xəstəliklər kafedrasına assistent vəzifəsinə seçilmişdir.

1989-cu ildə tibb elmləri namizədi elmi dərəcəsi alaraq, kafedrada baş müəllim, 1992-ci ildən bu günə qədər kafedranın dosenti kimi pedaqoji fəaliyyətlə məşğul olur.

2004-cü ildən 2017-ci ilə qədər kafedra müdiri kimi kollektivə rəhbərlik etmişdir. O, keçmiş SSRİ-nin müxtəlif şəhərlərində 4 dəfə əmək gigiyenası və peşə xəstəlikləri üzrə təkmilləşdirmə kurslarında olmuş, 5 iri həcmli dərsliyin, 120–dən çox elmi məqalənin müəllifidir.

Dosent S.Gürzəliyev yüksək ixtisaslı kadrların hazırlanması sahəsində səmərəli fəaliyyətinə görə 01.10.2010-cu ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmani ilə təltif edilmişdir.

Tələbələrin sevimli müəllimi olan Səyyad müəllim bu gün də yorulmadan çalışır, öz biliklərini gələcək həkimlərə, tələbələrə və rezidentlərə böyük həvəslə öyrədir. Onun mühazirələri və məşğələləri dinləyiciləri tərəfindən maraqla qarşılanır.

Azərbaycan Tibb Universitetinin Əmək gigiyenası və Uşaq-yeniyetmələr gigiyenası kafedrasının dosenti Səyyad Alı oğlu Gürzəliyevi yubileyi münasibəti ilə təbrik edir, ona möhkəm can sağlığı, yorulmaz müəllimlik fəaliyyətində uğurlar arzulayırıq.

*Əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası kafedrasının əməkdaşları*

# İİÇV-yə yoluxanlar üçün dərmanın qiymətinin ucuzlaşdırılması minlərlə həyatı xilas edə bilər

**BMT insanın immun çatışmazlığı virusuna (İİÇV) yoluxanlar üçün yeni səmərəli dərmanın qiymətini azaltmağa imkan verən sazişin imzalandığını elan edib. Varlı ölkələrdə geniş istifadə olunan doluteqravir preparatı bundan sonra aşağı və orta gəlirli ölkələrin sakinləri üçün də münasib qiymətə satılacaq.**



AZƏRTAC BMT-nin Xəbərlər Mərkəzinin saytına istinadla bildirir ki, bu “sıçrayış” bir sıra təşkilatların – BMT-nin İİÇV/QİÇS üzrə Birləşmiş Proqramının (UNAIDS), QİÇS, vərəm və malyariyaya qarşı Qlobal Mübarizə Fondunun, Bill və Melinda Geytslər Fondunun, ABŞ-ın Beynəlxalq İnkişaf Fondunun, əczaçılıq şirkətlərinin və bir sıra digər təşkilatların əməkdaşlığı sayəsində mümkün olub.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus deyib: “DST daha səmərəli, etibarlı və bir o qədər də bahalı olmayan dərmandan milyonlarla insanın istifadə etməsinə imkan verən sazişi alqışlayır. Bu saziş milyonlarla imkansız insanın sağalmasına kömək edəcək”.

Hazırda geniş yayılmış antiretrovirus “kokteyli” deyilən bir neçə preparatdan ibarət vasitə ilə müqayisədə doluteqravir bir həb şəklində istehsal olunur. Onun səmərəliliyi yüksək, əlavə təsirləri azdır. Bir adamın doluteqravirlə birillik müalicə kursu cəmi 75 dollar təşkil edir.

UNAIDS-in icraçı direktoru Mişel Sidibe vurğulayıb ki, yeni saziş milyonlarla insana öz həyatının keyfiyyətini artırmaq imkanı verəcək. “Müalicə sahəsində “90-90-90” hədəfinə çatmaq üçün yeni, ucuz və səmərəli preparatları almaq imkanlarını artırmaq lazımdır”, – deyə M.Sidibe vurğulayıb.

Xatırladaq ki, UNAIDS yaxın illər üçün qarşısına İİÇV-yə yoluxanların 90 faizinin öz diaqnozunu bilməsinə, onların 90 faizinin antiretrovirus temperaturla təmin olunmasına, müalicə olunan insanların 90 faizində virusun məhv edilməsinə nail olmaq məqsədi qoyub.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

KAFEDRALAR ÜZRƏ
AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN

**MÜSABİQƏ ELAN EDİR**

**Fakültənin dekanı:**

- Əczaçılıq fakültəsi

**Kafedranın müdiri:**

- Allerqologiya və immunologiya kafedrası

**Kafedraların professorları:**

- Bioloji kimya kafedrası - 1 yer
- İnsan anatomiyası kafedrası - 1 yer
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası -1 yer
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası - 1 yer
- Psixiatriya kafedrası - 1 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- Bioloji kimya kafedrası - 2 yer
- Ailə təbabəti kafedrası - 2 yer (0,5 vahid)
- Oftalmalogiya kafedrası - 2 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 2 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer
- Farmakoqnoziya və botanika kafedrası - 1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın müəllimi:**

- İctimai fənlər kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08, 597-41-69, 597-43-23**

**DİQQƏT!**

**Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə!**

**2017-2018-ci tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə (xüsusi formada)
2. Kadlar uçotunun şəxsi vərəqəsi
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və qrup həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Xüsusi formada tərtib edilmiş tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti, ünvan və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı (xüsusi formada) və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti

**Qeyd:** *ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.*

# Bakı Ekspo Mərkəzində 23-cü Azərbaycan Beynəlxalq Səhiyyə "BIHE 2017" sərgisi açılıb

**Bakı Ekspo Mərkəzində 23-cü Azərbaycan Beynəlxalq Səhiyyə "BIHE 2017" sərgisi açılıb. Sərgi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Stomatologiya Assosiasiyası (ASA), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) dəstəyi ilə baş tutub. Sərginin təşkilatçıları qismində "Iteca Caspian" və onun Böyük britaniyalı tərəfdaşı "ITE Group" şirkətləri çıxış edirlər.**



AZƏRTAC xəbər verir ki, sərgi tibb müəssisələrinin əməkdaşları, müasir tibbi avadanlıqların təchizatçıları və əczaçılar arasında peşəkar əlaqələrin qurulması və təcrübə mübadiləsi üçün platforma olmaqla yanaşı, Azərbaycanda səhiyyə sisteminin daha da səmərəli olması məqsədi daşıyır. Tədbirə Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna, Almaniya, Belarus, Çin, Hindistan, İtaliya, İran, İsveçrə, Litva, Polşa və digər ölkələrin şirkətlərini təmsil edən 104 iştirakçı qatılıb. Bundan əlavə, sərgidə xarici şirkətlərlə yanaşı, nəhəng dünya istehsalçılarının tərəfdaşı olan tibbi avadanlıqların aparıcı yerli distribüterləri də iştirak edir. Yerli distribüterlər arasında "BTL Industries", "Labservis", "Planeta" və digər şirkətlər yer alır.

Açılış mərasimində səhiyyə nazirinin müavini Elsevər Ağayev çıxış edib. O bildirib ki, artıq uzun illərdir Azərbaycanda keçirilən beynəlxalq səhiyyə sərgisi tibb sahəsində aparılan islahatlara öz töhfəsini verir.

Nazir müavini deyib: "Ölkəmizdə sosial istiqamətdə aparılan siyasətin ən prioritet məsələlərindən biri də səhiyyənin inkişafıdır. Son illərdə bu istiqamətdə çox uğurlu addımlar atılıb, 600-ə qədər tibb müəssisəsi müasir səviyyədə yenidən qurulub və yaxud tikilib. Onların maddi texniki bazası yenilənib. Bundan əlavə kadr hazırlığı istiqamətində çox ciddi addımlar atılıb. Bəlli olduğu kimi artıq bu ildən səhiyyədə islahatların bir qanadı olaraq icbari tibbi sığortanın pilot layihəsi həyata keçirilməyə başlayıb".

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov sərginin əhəmiyyətini qeyd edərək deyib: "Dövlət siyasətinin inkişaf strategiyasının mühüm istiqamətlərindən olan iqtisadiyyatın davamlı inkişafı, sosial rifahın artırılması və məşğulluğun təmin olunmasını xüsusi qeyd etmək lazımdır. Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi sosial məsələlərin həlli üçün çox geniş zəmin yaradır. Bu baxımdan, xüsusilə ölkəmizdə son illərdə həyata keçirilən sənayeləşmə siyasəti, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sahələrinin inkişafını xüsusi qeyd etmək lazımdır. Bu istiqamətdə dərin islahatlar həyata keçirilir, sistemli tədbirlər icra olunur, strateji xarakter daşıyan sənədlər qəbul olunur və həyata keçirilməsi təmin edilir. Ölkə başçısı tərəfindən sosial və iqtisadi məsələlərin vəhdətdə inkişaf etdirilməsinə olduqca böyük diqqət yetirilir. Bu baxımdan səhiyyənin inkişafı, tibb sahəsinin, əczaçılıq sənayesinin inkişafı bu gün Azərbaycanda iqtisadi inkişafın mühüm prioritetlərindən biridir".

Qeyd edək ki, bu il iştirakçılar sərgidə tibb və laboratoriya avadanlıqları (cərrahiyyə əməliyyatı masası üçün tibbi avadanlıqlar, plastik cərrahiyyə üçün lazer avadanlıqları), dərman preparatları, tibbi alətlər, eləcə də əczaçılıq avadanlıqları təqdim edirlər.

"BIHE-2017" sərgisi ilə yanaşı, 11-ci Azərbaycan Beynəlxalq Gözəllik və Estetik Tibb "Beauty Azerbaijan 2017" sərgisi də keçirilir.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin III kurs, $7^b$ qrup tələbəsi Serhat Uralın adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $166^a$ qrup tələbəsi Süleymanzadə Lamiə Elçin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $310^a$ qrup tələbəsi Şahmarlı Ramizə Vüsal qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $7^a$ qrup tələbəsi Muhammed Sıddık Alçiçek Abdulariz oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər, Nəsimi rayon, Abbas Səhət küçəsi 57 ünvanında yaşayan sakini Ağalarov Bəkir Qafar oğluna 2013-cü ildə BT tərəfindən verilmiş evin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin III kurs, $1117^a$ qrup tələbəsi Astanov Nizam Qismət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Hüseynli Kamran Sahib oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Ağayeva Kəmalə Sərdar qızına 2000-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin məzun tələbəsi Həsənov Hilal Şikar oğluna verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

ATU-nun rektorluğu və Həmkarlar İttifaqı Komitəsi uşaq stomatologiyası kafedrasının assistenti

**Əlibaxış Kəlbiyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər kafedrasının əməkdaşları və "Təbib" qəzetinin kollektivi AMEA- nın müxbir üzvü, professor Nuru Bayramova bacısı

**Məhbubə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Kəmalə İmanovaya dayısı

**Hüseyn müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti Aytəkin Adilovaya anası

**Kübra xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Mətanət Məmmədovaya nənəsi

**Mələk xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^c$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800